AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 3 (269), 77-83
https://dx.doi.org/10.48445/a7273-7567-3052-r

**AZƏRBAYCAN ƏDƏBİYYATI**
**NİZAMİ GƏNCƏVİ - 880**

# Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasının dilində hərbi leksikanın işlənmə məqamları

***Elnarə Cavadova***
Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının adyunktu, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təlimatçısı, baş leytenant. Azərbaycan.
E-mail: e-cavadova@mail.ru
https://orcid.org/0000-0002-6241-874X

**XÜLASƏ**
Məqalədə Nizami Gəncəvinin yaradıcılığında işlənmiş hərbi sözlərdən danışılır. Bu məqsədlə şairin "Sirlər xəzinəsi" poemasının dili araşdırılır. Poemanın dilində işlənən hərbi leksika nümunələri seçilib təhlil edilir və onların üslub xüsusiyyətləri üzə çıxarılır. Məqalədə bədii əsərlərdə Azərbaycan dilinin hərbi leksikasından daha çox iki məqsədlə istifadə edildiyi göstərilir. Belə ki, hərbi sözlər poeziyada həm həqiqi mənada işlənir, həm də onların məcazi anlamlarından istifadə edilir. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərinin dilindəki hərbi sözlərin, əsasən, bədiilik keyfiyyəti daşıması əsaslandırılır və onların üslubiyyatda əhəmiyyətə mailk olmasını göstərən nümunələrlə bağlı elmi mülahizələr verilir. Məqalədə irəli sürülən elmi-nəzəri fikirlər dil-üslub faktları ilə təsdiq edilir.

**AÇAR SÖZLƏR**
dil, üslub, söz, hərbi, məna

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib – 14.07.2021
qəbul edilib – 22.08.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO. 3, VOL. 269, 77-83
https://dx.doi.org/10.48445/a7273-7567-3052-r

**AZERBAIJANI LITERATURE**
**NIZAMI GANJAVİ – 880**

# In the language of Nizami Ganjavi's poem "Treasure of secrets" development points of military vocabulary

***Elnara Javadova***
Adjunct of the Military Academy of the Armed Forces of the Republic of Azerbaijan, instructor of the Army Ideological and Cultural Center named after Hazi Aslanov, senior lieutenant. Azerbaijan. E-mail: e-cavadova@mail.ru
https://orcid.org/0000-0002-6241-874X

**ABSTRACT**
The article examines the military words used in the works of Nizami Ganjavi. For this, the language of the poem "Treasure of Secrets" is studied. Selected and analyzed examples of military vocabulary used in the language of the poem, identified their stylistic features. The article shows that the military vocabulary of the Azerbaijani language is used in works of art for more than two purposes. Thus, military words are used in poetry both literally and figuratively. Military words in the language of "Treasures of Secrets" by Nizami Ganjavi are mainly based on their artistic qualities, and scientific considerations are given on examples showing their meaning in stylistics. The scientific and theoretical ideas put forward in the article are confirmed by linguistic and stylistic facts.

**KEYWORDS**
language, style, word, military, meaning

**ARTICLE HISTORY**
Received – 14.07.2021
Accepted – 22.08.2021

## Giriş / Introduction

Azərbaycan dili leksik-semantik baxımdan zənginliyi ilə diqqət cəlb edən dillərdən biridir. Onun leksikasında müxtəlif dövrlərə aid maraqlı və bol faktlarla zəngin olan nümunələrlə qarşılaşırıq. Bu baxımdan, hərbi sözlər işlənmə məqamları və məna çalarları ilə bir-birindən seçilir. Xüsusilə də üslub özəlliklərinin yaranmasında bu sözlərin fəallığı özünü göstərir. "Üslubiyyat problemləri müasir dilçilikdə hələ də tam şəkildə öz elmi həllini tapa bilməmişdir. Doğrudur, bu sahədə yeni konsepsiyalar irəli sürülmüşdür, lakin problemin həlli üçün əsaslı işlərin aparılmasına böyük ehtiyac duyulur" [6, s.139]. Bu baxımdan, hərbi leksikanın üslubi rolunun üzə çıxarılması elmə yeni töhfələr verməkdə faydalıdır.

Həm orijinal, həm də tərcümə əsərlərində hərbi sözlər aktiv mövqeyə malikdir. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması bu fikri təsdiq edən maraqlı qaynaqlardan biri hesab edilir. Poemada qədim hərbi sözlərdən öz dövrü üçün ümumişlək olan leksik vahidlərin əksəriyyəti işlənmişdir. Bu baxımdan, aşağıda verilən nümunədə *"qılınc"* sözü diqqət cəlb edir:

Gördüm arxam, önüm də aslanlarla doludur,
*Qılınc*larla kəsilmiş yolum – ölüm yoludur.
*Qılınc*larla qapanmış bu ölkədə qoy dedim,
Ən uca, güclü səslə sənə bir xitab edim [4, s.34].

Yuxarıdakı örnəklərdə qılıncın kəsərli silah kimi ölümlərə yol açdığını göstərən müəllif gecəni vəsf edərək ay və ulduzlardan danışarkən, qılıncın məcazi anlamından istifadə edib bədiilik yaratmışdır:

Qonşuları – ulduzlar *yaraq*sız görüb onu,
Dərhal *qılınc* çəkdilər vurmaq üçün boynunu.

Poemadan alınmış bu nümunənin birinci misrasında işlənən *"yaraq"* sözü hərbi leksikaya aid olan *"silah"* anlamı daşıyır.

Aşağıda verilən nümunədə dünya malı üçün yaşamağın, var-dövlət toplamağın faydasız olduğunu anladan şair belə insanların sultanlara möhtac qaldığını bildirmək üçün təqdim etdiyi fikirlərində *"qılınc"* sözündən istifadə etmişdir:

Sultanın qızılından zərli əba geyənlər,
Bir gün çörək yerinə dəmir çeynər, daş yeyər.

Fəqət saf civə kimi zər qəmi çəkməyən kəs
Diri qalar, sultanın *qılınc*ını gəmirməz [4, s.39].

“Sirlər xəzinəsi”nin dilində Nizami Gəncəvi *“qılınc”* sözünü maraqlı üslubda işlətmişdir. Belə ki, o, səhər açılarkən, günəşin doğuşundan yaranan rəngi qılınc yarasından tökülən qanla müqayisə edir:

Mən hər yerdə asudə. Bir də nə gördüm öndə:
*Qılınc* vurur başına, səhər al-qan içində! [4, s.57].

Araşdırmalar göstərir ki, *“qalxan”* sözü də işlənmə xüsusiyyətinə görə seçilən vahidlərdəndir. Poemada torpaqla dialoqa girən Günəşin nitqində və hərəkətində “qalxan” sözünün mənaları diqqət cəlb edir:

“*Qalxan*ını at suya” – dedi Günəş torpağa,
Özü də *qalxan*ını atdı, qoydu qırağa [4, s.41].

Bədii örnəklərdə *qılınc* və ondan qorunmaq üçün istifadə edilən *qalxan* kimi silahları ifadə edən sözlər çox zaman bərabər işlədilir:

Mən dözmədim şəfəqin yürüşü qarşısında,
*Qalxan* etdim canımı bu qılınca, bu oda [4, s.58].

Əsərdə *“qalxan”* sözünün qarşılığı kimi *“sipər”* sözü də işlənmişdir:

Gördü can verir Günəş, cahan bir az daraldı,
Onun saralıb-solan *sipər*indən rəng aldı [4, s.41].

“Azərbaycan dilinin izahlı lüğəti”ndə *“sipər”* sözünün iki anlamı diqqət cəlb edir:

1. qalxan;
2. qoruyucu vasitə kimi istifadə edilən hər cür şey, qurğu və s. [1, s.124].

Sözügedən poemada qədim hərbi sözlərdən biri kimi *“ox”* leksik-qrammatik vahidinin də işlənmə məqamları vardır:

*Ox* atma ki, hədəfin öz düşüncəndir sənin,
Atın öz ayağındır, qamçını az vur, çəkin! [4, s.44].

Maraqlıdır ki, poemanın dilində hərbi sözlər ictimai-siyasi məzmundan çox bədiiliyə xidmət edir.

Xeyirin *ox* qabında daha qalmamış tikan,
İstər *qalxana* dönsün, istər diləsin aman [4, s.49].
Bir naz xəfif dəysəydi qəmzəsinin *ox*ları,
Can düşüb qədəminə öpərdi torpaqları [4, s.57].

Poemada bir zamanlar dilimizdə istifadə olunan *ox qabı* mənasında *sadaq* və *bəliğ* sinonim sözlərinə də rast gəlmək mümkündür.

"Sirlər xəzinəsi"nin dilində maraqlı bənzətmələrdən istifadə edilmişdir ki, bu prosesdə hərbi sözlərin məcaz keyfiyyətləri qabarıq şəkildə özünü göstərir. Məsələn, şair söyüd ağacının titrəməsi ilə qılınc vurulmuş adamı müqayisə edir və nəticədə orijinal bir bənzətmə yaranır:

Titrəyir salxım söyüd *ox*la vurulmuş kimi [4, s.49].

"Sirlər xəzinəsi"ndən alınmış nümunələr göstərir ki, böyük şairin poeziyasında hərbi leksikanın özünəməxsus rolu vardır. Müəllif müxtəlif üslub məqsədləri üçün hərbi sözlərdən sənətkarlıqla istifadə etmiş, adi söz hesab etdiyimiz bu maraqlı dil vahidlərinin bədii mahiyyətini ustalıqla açmışdır. Araşdırma obyektinə çevrilən dil-üslub faktları hərbi sözlərin də ekspressiv-emosional çalarlığa malik olduğunu təsdiq edir. Aşağıdakı örnəkdə *"kəşfiyyatçı"* və *"kəməndatan"* leksemləri belə dil vahidlərindəndir:

Şikar *kəşfiyyatçı*sı, sərt, acıqlı bir cavan,
Yanında qara bir qul, bir az qəmgin, pərişan.
Pusquda ayıq-sayıq, mahir bir *kəməndatan*,
Gümüşdən zireh geyən mis bədənli pəhləvan [4, s.45].

Hərbi sözlərin maraqlı üslub xüsusiyyətlərinə malik olduğu məlumdur. Onların içərisində hazırda hərbi məzmununu itirən sözlər çoxdur. Lakin hərbi məna baxımından aktivliyini itirsə də, bədiilik cəhətdən fəallığını qoruyub saxlayan bir sıra hərbi sözlər indi də üslub özəllikləri ilə ədəbi-bədii üslubun orijinal faktları kimi işlənir. Burada söz sənətkarlarının mühüm rolu vardır. Uzun zamanlardan bəri yaddan çıxmış bir sıra hərbi sözlər ədəbi simalar tərəfindən bədii dildə yenidən yaddaşa qayıdır. Bu baxımdan, sözügedən poemanın dilindəki *"xəncər", "neştər"* və *"süvari"* sözləri diqqət cəlb edir:

Öküz bürcü – boynunda neçə muncuq, sədəf, zər,
Yıxıldımı, üstünə *xəncər* çəkər Ay-ülkər [4, s.41].
Qaranlığın qanını tökdü qızıl *xəncər*i [4, s.58].

Yemiş sənin balını sanc onu *neştər*inlə [4, s.58].
Qarşımızda qırmızı, qızıl donlu *süvari,*
Zəfər rəmzi bir gəncin ləl rəngində paltarı [4, s.45].

Əsərdə şair *xəncər* sözündən istifadə edərək bədii-estetik baxımdan dərin üslubi keyfiyyəti ifadə etmiş, bu müqəddəs şəxslərlə mənalı və orijinal bənzətmə örnəyi yaratmışdır:

Zülf – İbrahim, yanaqlar – İbrahim atəşləri,
Göz – İsmail, kirpiklər – onun qətl *xəncər*i [4, s.55].

Bundan başqa, qaş xəncərə bənzədilərək nərgizin (gözün) üstündə açılmış gül kimi gülümsəyir. Ərəb sözü olan *“xəndan”* lüğətdə üç anlamda işlənmişdir:

1. gülən, gülər;
2. şən, şad;
3. tamam açılmış gül [2, s.692].

Nizami Gəncəvi sözün mənalarından ustalıqla istifadə edərək sözləri poetikləşdirmiş, gözəl bir bədii mənzərə yaratmışdır.

Yanağının atəşi bir dəstə reyhan oldu,
Nərgizinin üstündə *xəncər* də xəndan oldu [4, s.55].

Poemada hərbi leksika nümunələrindən olan *“ordu”* sözünə də rast gəlirik:

Mən könül *ordu*sunun görüncə bayrağını,
Üz çevirdim aləmdən, atdım hər növrağını [4, s.45].

Qoşun, ordu, hərbi hissə mənasında olan *sü* sözü “ordu”nun ilkin variantı hesab edilir. Mütəxəssislər bu söz kökünün XIX yüzilliyə qədər yazılı abidələrimizdə işlənməsini göstərirlər. Onun əsas anlamı “hərəkət etmək” deməkdir. “Kutadqu bilik” əsərində də qarşılaşırıq: *Ava yıqlu türlür er at sü bolur, er at sü bile er tilekin bulur* [3, s.122]. Mənbələrdə buradakı ər sözü insan kimi izah edilir: *Ətrafına əsgər toplanır, ordu olur, əsgər və ordu ilə insan diləyinə qovuşur* [5, s.146]. Lakin fikrimizcə, burada *ər* sözü *igid* mənasındadır. Çünki hər insan ətrafına əsgər və ordu toplaya bilməz, bu, igidlərə xas olan cəhətlərdəndir.

Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poemasının dilindəki hərbi sözlərdən biri də *“bıçaq”*dır. Odlu silahların meydana çıxmasından əvvəl soyuq silah növü kimi istifadə edilən bıçaq bədii dildə həm döyüş alətinin adı kimi həqiqi mənada, həm də üslub məqsədi ilə işlənmişdir:

Təbərxuntək, innabtək qan tökən gül dodaqlar
Cana qıyar, şəkərin ağ başını *bıçaq*lar [4, s.51].

## Nəticə / Conclusion

Araşdırma göstərir ki, üslub məqsədilə işlənən hərbi sözlər bədiiliyin üfüqlərini genişləndirməkdə aktiv mövqeyi ilə seçilir. Deməli, hərbi leksika adi, quru sözlərdən ibarət deyil, onların maraqlı, rəngarəng və orijinal üslub keyfiyyətləri vardır. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasının dili üzərindəki tədqiqat şairin hərbi leksika vahidlərindən bol-bol istifadə etdiyini təsdiqləyir. Şairin dilindəki hərbi sözlər həm həqiqi anlamda, həm də məcazlıq keyfiyyəti ilə səciyyələnərək bədiilik mövqeyində işlənmişdir.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Azərbaycan dilinin izahlı lüğəti. (2006). Bakı, Şərq-Qərb.
2. Ərəb və fars sözləri lüğəti. (1967). Bakı, Azərbaycan SSR Elmlər Akademiyası. 1035 s.
3. Hacip xas Y. (2007). Kutadqu bilik. Ankara, Türk Dil Kurumu yayınları. 656 s.
4. Gəncəvi N. (2013). Sirlər xəzinəsi. Əsərləri. 2 clddə, I c. Bakı, Şərq-Qərb. 780 s.
5. Məhərrəmli B. (2017). Türk dillərinin qədim leksikası. Bakı, Xəzər Universiteti nəşriyyatı. 272 s.
6. Səfərov M. (2016). Dil və üslub. Azərbaycan dili məsələləri. Bakı, Elm və təhsil, s.138-146.